# Ədalətli və qayğıkeş insan

**Hacı Hacıyevin Azərbaycan Jurnalistlər Birliyinə katiblik və sədrlik etdiyi uzun illər ərzində həmişə qapısı hamının üzünə açıq olub.**

...BDU-nun jurnalistika fakültəsinin qiyabiçi tələbəsi idim və yaradıcılıq təşkilatımıza üzv olmaq üçün ərizə vermişdim. Bakıda qəbul edilsəm də, Moskvaya – SSRİ Jurnalistlər İttifaqına təsdiqə göndərilən sənədlərim hələ gəlib çıxmamışdı. Yenicə ailə qurmuş və yaşadığım Sumqayıt şəhərində mənzil növbəsində durmuşdum. Ümumi qaydada mənə 1 otaqlı ev düşürdü, yaradıcılıq təşkilatının üzvü kimi isə 2 otaq da verə bilərdilər. Amma Viktor Afanasyevin imzalayacağı üzvlük biletim hələ Moskvadan göndərilməmişdi. Odur ki, çəkinə-çəkinə Hacı müəllimin qəbuluna getdim. Məni səbrlə dinlədikdən sonra:

– Cavan oğlan, – dedi, – sən artıq yarım ildir ki, təşkilatın üzvüsən və əlavə 1 otaq da almaq hüququn qanunidir. – Sonra da əməkdaşı Tamilla xanıma tapşırdı ki, mənə bu barədə arayış versin.

Beləliklə, hələ üzvlük biletim Moskvadan gəlməmiş, onun sayəsində imtiyazdan bəhrələnərək, 2 otaqlı mənzillə təmin edildim. Elə sevinirdim ki, orderi alandan sonra gedib Hacı müəllimə minnətdarlıq etməyi də unutdum. İndi – 42 il sonra həmin görüşü xatırlamaqla rəhmətliyə, gec də olsa, vəfa borcumu qaytarmaq istəyirəm.

Hacı Hacıyev 1925-ci il fevralın 18-də Bakıda anadan olub. ADU-nun (indiki BDU) filologiya fakültəsində qiyabi təhsil alıb. “Azərbaycan gəncləri” qəzetində, respublika, “Gənclik” nəşriyyatında, “Ekran” Yaradıcılıq Birliyində, “Müxbir” jurnalında çalışıb, hamısında da – istər sıravi işçi olsun, istərsə də rəhbər vəzifə sahibi – etimadı layiqincə doğruldub.

Özəl qələm sahibi olan Hacı müəllim “Hekayələr”, “İstiqlalın əzablı yolu”, “Xatirələr və ya Çəmbərəkənddən başlanan həyat” kitablarının müəllifidir. Onun ədəbi yaradıcılığında bədii tərcümə və publisistika xüsusi yer tutub. Dünya ədəbiyyatından Azərbaycan dilinə çevirdiyi əsərlər rəğbətlə qarşılanıb və vaxtaşırı nəşr edilib. Ernest Heminqueyin çoxumuzun oxuduğu “Əlvida, silah” və “Əcəl zəngi”, Vasili Yanın “Çingiz xan”, Anton Çexovun “Gecikmiş güllər”, Anatoli Rıbakovun “Arbat övladları” kitabları, Polşa və Misir yazıçılarının hekayələri bu qəbildəndir. Maksim Qorkidən Azərbaycan dilinə çevirdiyi “Qoca” pyesi mavi ekranda və efirdə verilib. O, həm də neçə-neçə filmin redaktoru və ssenari müəllifi idi. Türkiyənin “Yeni forum” və “Tanıtım” jurnallarında, eləcə də bir sıra xarici mətbuatda siyasi publisistik məqalələri dərc olunub. Türkiyənin Kayseri şəhərində Ümumdünya Azərbaycan konqresində (1990), Bodrumda “Türk millətlərinin siyasi və iqtisadi gələcəyi” simpoziumunda (1991) Azərbaycanda milli istiqlal hərəkatı və siyasi vəziyyətə dair məruzələr edib. Almaniyada və bir sıra xarici ölkədə mötəbər konfranslarda Azərbaycan mediasını təmsil edib.



1990-nın “Qanlı Yanvar”ından sonra Bakıda fövqəladə vəziyyət olduğundan, onun təşəbbüsü ilə jurnalistlər Gəncədə fövqəladə plenum keçirərək, SSRİ Jurnalistlər İttifaqının tərkibindən çıxıblar. Bu, keçmiş SSRİ-də cəsarətli bir ilk olub. Sovet dövründə bu yaradıcılıq birliyində millilik məsələsini də gündəmə o gətirib. Məhz Hacı Hacıyevin təklifi ilə ölkəmizdə Mətbuat Günü “Əkinçi”nin işıq üzü gördüyü günə uyğun olaraq 22 iyula keçirilib.

Hacı Hacıyevın təşəbbüsü ilə Həsən bəy Zərdabi media mükafatı təsis olunub. (Bu sətirlərin müəllifi də sonralar o mükafata layiq görülüb). Onun dövründə AJB nəzdində Jurnalist Sənətkarlığı İnstitutu yaradılmışdı. Müxbir olmaq istəyən qeyri-ixtisas sahibləri 2 il orda oxuyur, nəzəri biliklərə yiyələnirdilər. Hacı Hacıyev mərhum Ramiz Əskərovla birlikdə məşhur İsveç reportyoru Erik Fixteliusun “Jurnalistikanın on qızıl qaydası” kitabını da dilimizə çevirərək, həmin institut tərəfindən nəşr etdirib. Sonra, nədənsə, o gərəkli institut bağlandı.

Azərbaycan jurnalistikasının ağsaqqalı olmuş unudulmaz Hacı Hacıyev 23 fevral 2008-ci ildə dünyasını dəyişib. Şüvəlan qəbiristanlığında uyuyur. 20 ildir ki, bir vaxtlar 4-cü mərtəbəsi onun iş yeri olmuş Bülbül prospekti, 30 ünvanında yerləşən redaksiymıza hər işə gələndə Hacı müəllimi xatırlayıram. Dünən isə xatirəsinə ehtiramla, 42 il əvvəlki kimi, məxsusi olaraq onun kabinetinə gedərək, orada AJB-nin sədr müavini vəzifəsində çalışan doğma qardaşı oğlu Şahin Babayevlə görüşdüm və mərhumu birlikdə yad elədik.

***Əli NƏCƏFXANLI***
***XQ***

Xalq qəzeti.- 2025.- 18 fevral (№ 36).- S.10.